<table>
<tr><td>Xəlil Ələkbər oğlu Cəfərov</td><td></td></tr>
<tr><td colspan="2">Xəlil Ələkbər oğlu Cəfərov memarlıq təhsilini 1984 –1991-ci illərdə o zaman Azərbaycan İnşaat-Mühəndisləri İnstitutu adlanan ali təhsil müəssisəsinin memarlıq fakültəsində almışdır. 1991-ci ildə Səmərqənd şəhərində keçirilən Diplomantların Ümumittifaq Müsabiqəsində onun diplom layihəsi SSRİ Memarlar İttifaqının I dərəcəli diplomuna layiq görülmüşdür. “Səmərqənd şəhərinin tarixi mərkəzinin rekonstruksiyası” adlanan diplom mövzusunda, layihələndirmə və elmi araşdırma tələb olunduğundan bu sahədə əldə etdiyi ilk təcrübə onun sonrakı fəaliyyət istiqamətini müəyyənləşdirdi. 1992-ci ildən Xəlil Cəfərov təhsil aldığı institutun “Memarlıq layihələndirilməsi və şəhərsalma” kafedrasında çalışmağa başlamışdır. O həmin dövrlərdə elmi-pedaqoji fəaliyyətlə yanaşı, həm də praktiki layihələndirmə işləri ilə də məşğul olmuşdur. Xəlil Cəfərov 1997–2001-ci illərdə memarlıq fakültəsində dekan müavini, 2006-cı ildə isə memarlıq fakültəsinin dekanı vəzifəsində çalışmışdır. 2007-2014 Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Ağentliyi“ Azərdövlətlayihə” DBLİ-nin direktoru vəzifəsində çalışıb. O bu gün də universitetin “Memarlıq layihələndirilməsi və şəhərsalma” kafedrasının dosentidir. Memarlıq üzrə fəlsəfə doktorudur. Tikinti biznesinin daha geniş vüsət aldığı dövrlərdə, yəni 2001-ci ildə özünün ilk layihə şirkətini “Memarlıq və İnşaat” MMC-ni təşkil etdi. Həmin dövrdən başlayaraq onun rəhbərlik etdiyi şirkətdə müxtəlif təyinatlı bir çox layihələr hazırlanmış və reallaşdırılmışdır. Onların sırasında “MAN” Şirkətlər Qrupunun inzibati binası, Goradil qəsəbəsində Müdafiə Nazirliyi üçün istirahət mərkəzi, müxtəlif yaşayış və ofis binalarını göstərmək olar.<br><br>Xəlil Cəfərov 16 elmi əsərin və metodik göstərişlərin müəllifidir. 2008-ci ildə “Ustad Memar” sertifikatı, 2012-ci ildə Azərbaycan Respublikasının “Tərəqqi” medalı, 2017-ci ildə Azərbaycanın Əməkdar memarı, 2017-ci ildə Azərbaycan Respublikası Memarlar İttifaqı tərəfindən çoxillik yaradıcılıq fəaliyyətinə görə Fəxri Fərmanla təltif olunub. 2018-ci ildən Beynəlxalq Memarlıq Akademiyasının Moskva bölməsinin professorudur.</td></tr>
</table>